# İsveçrə Əməkdaşlıq Təşkilatının Cənubi Qafqaz üçün 2017-2020-ci illər üzrə Əməkdaşlıq Strategiyası


Azat çay dərəsi - Ermənistanda yerləşən çoxsaylı dərələrdən biri.

# Giriş

Tarix boyunca Cənubi Qafqaz Şərq və Qərbin kəsişməsində yerləşdiyinə görə mürəkkəb və strateji əhəmiyyət kəsb edən region olmuşdur. Cənubi Qafqazın üç müasir respublikası - Ermənistan, Azərbaycan və Gürcüstan Avropa və Asiya arasındakı sərhəddə və Qara dənizlə Xəzər dənizinin arasında yerləşir. Həyati əhəmiyyət kəsb edən enerji marşrutlarının kəsişdiyi region Rusiya, Türkiyə və İranla həmsərhəddir. Hər üç ölkə əhəmiyyətli geosiyasi aktyorların ziddiyyət təşkil edən maraqlarının obyektidir. Hər üç ölkənin Sovet İttifaqından çıxması bir sıra həll olunmamış mübahisələr, dondurulmuş münaqişələr meydana gətirmişdir ki, bu da regionun inkişafına mane olur və ümumilikdə regionun stabilliyini təhlükə altına salır.

Sovet İttifaqının dağılmasından sonra İsveçrə Cənubi Qafqazdakı fəaliyyətini genişləndirmişdir. İsveçrənin bu ölkələrə yardım etməyə fəal şəkildə can atması İsveçrənin həmrəylik ənənəsinə əsaslanır. Eyni zamanda, İsveçrə yüksək qloballaşan bir ölkə kimi təhlükəsizliyi və firavanlığını stabil mühitə borcludur. Bu səbəbdən, İsveçrə hər üç ölkə ilə güclü diplomatik əlaqələr yaratmış və onların inkişafı, o cümlədən münaqişələrin qarşısının alınması və həll edilməsində əməyi olmuşdur. İsveçrə müxtəlif münaqişələr ilə əlaqəli vasitəçilik səyləri və humanitar, texniki və maliyyə məsələləri ilə bağlı göstərdiyi yardıma görə Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri tərəfindən etibarlı tərəfdaş hesab olunur. Bundan əlavə, İsveçrə Gürcüstanda müdafiə sahəsində mandata sahibdir və burada İsveçrə Səfirliyi Rusiyanın maraqlarını təmsil edir.

İsveçrənin Cənubi Qafqazla qarşılıqlı əlaqəsi 1988-ci ildə Ermənistanın şimal hissəsində baş verən dağıdıcı zəlzələdən sonra başlamışdır və həmin tarixdən etibarən genişlənmiş və intensivləşmişdir. 1999-cu ildə İsveçrə Gürcüstanın paytaxtı Tbilisi şəhərində Regional Əməkdaşlıq Ofisini açmışdır. İsveçrə Əməkdaşlıq Təşkilatının Cənubi Qafqaz üçün 2017-2020-ci illər üzrə yeni Əməkdaşlıq Strategiyası İsveçrə Əməkdaşlıq Təşkilatının Cənubi Qafqaz üçün 2013-2016-cı illər üzrə Əməkdaşlıq Strategiyasının icrası nəticəsində əldə olunan nəticələrə əsaslanaraq İsveçrə hökumətinin regionun stabilliyi və inkişafı üçün göstərdiyi davamlı öhdəliyini doğrultmağa çalışır.

İsveçrə Əməkdaşlıq Təşkilatının Cənubi Qafqaz üçün 2017-2020-ci illər üzrə yeni Əməkdaşlıq Strategiyası İsveçrənin İnkişaf və Əməkdaşlıq Agentliyi (İİƏA), İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO), Xarici İşlər üzrə Federal Departamentin İnsan Təhlükəsizliyi Bölməsi tərəfindən birgə hazırlanmışdır və İsveçrənin 2017-2020-ci illər üzrə Beynəlxalq Əməkdaşlıq üzrə çıxış sənədində müəyyən olunduğu kimi İsveçrənin inkişaf siyasətinin prinsiplərinə uyğun olaraq tərəfdaş ölkələrin məqsədyönlü ehtiyaclarını diqqətli şəkildə təmin etmək üçün nəzərdə tutulmuşdur. Strategiya həmçinin sürətli inkişaf və yerlərdəki qeyri-stabil vəziyyəti nəzərə almaqla Davamlı İnkişaf üzrə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş 2030-cu ilin gündəlikdə duran məsələlərinə köməklik göstərmək məqsədi daşıyır. Bundan əlavə, iqlim dəyişikliyi və həll edilməmiş münaqişələr kimi ümumi problemləri həll etmək məqsədilə regional səviyyədə aydın şəkildə əməkdaşlığa ehtiyac vardır. Bu səbəbdən, İsveçrə diqqətini transsərhəd təşəbbüslərin təşviqinə yönəldəcək.

Biz inanırıq ki, İsveçrənin Əməkdaşlıq Strategiyası çərçivəsində həyata keçiriləcək fəaliyyətlər Cənubi Qafqazın gələcək inkişafına səmərəli və məqsədyönlü şəkildə töhfə verəcək və biz inkişaf sahəsi üzrə digər dörd illik məhsuldar tərəfdaşlığının baş tutmasına çox ümid edirik.

Gəlin İsveçrənin Cənubi Qafqaz üçün 2017-2020-ci illər üzrə yeni Əməkdaşlıq Strategiyası ilə tanış olaq.

Bern, dekabr 2016-cı il

# İxtisarların siyahısı

| | |
|---|---|
| AİA | Avstriya İnkişaf Agentliyi |
| AİB | Asiya İnkişaf Bankı |
| CHF | İsveçrə frankı |
| FRA | Fəlakət Riskinin Azaldılması |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| AİB | Avrasiya İqtisadi Birliyi |
| AİB | Avropa İnvestisiya Bankı |
| Aİ | Avropa İttifaqı |
| FAO | Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| XİFD | Xarici İşlər üzrə Federal Departament |
| QEF | Qlobal Ekologiya Fondu |
| GIZ | Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti |
| HY | Humanitar Yardım |
| İTB | İnsan Təhlükəsizliyi Bölməsi |
| BQXK | Beynəlxalq Qızıl Xaç Komitəsi |
| MK | Məcburi köçkün |
| KTİBF | Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası |
| BMT | Beynəlxalq Maliyyə Təşkilatı |
| BVF | Beynəlxalq Valyuta Fondu |
| QHT | Qeyri-hökumət təşkilatı |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| DXMH | Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı |
| DMİ | Dövlət Maliyyəsinin İdarəedilməsi |
| İƏT | Cənubi Qafqazda İsveçrə Əməkdaşlıq Təşkilatı |
| İƏİA | İsveçrənin Əməkdaşlıq və İnkişaf Agentliyi |
| SECO | İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi |
| KOM | Kiçik və orta müəssisə |
| BMTİP | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| BMT QAK | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |
| UNWOMEN | BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu |
| USD | ABŞ dolları |
| DB | Dünya Bankı |
| ÜTT | Ümumdünya Ticarət Təşkilatı |

# Mündəricat


Giriş ... 3
İxtisarların siyahısı ... 4
Qısa icmal ... 6

**1. Cari vəziyyət ... 7**

**2. İsveçrə və Cənubi Qafqaz Regionu arasında Əməkdaşlıq üçün səbəblər ... 9**

**3. Keçmiş nailiyyətlər və təcrübələr ... 10**

*3.1. İqtisadi inkişaf və məşğulluq ... 10*

*3.2. İdarəetmə və İctimai Xidmətlər ... 12*

*3.3. İnsanların təhlükəsizliyi və mühafizəsi ... 14*

**4. Gələcək Proqramın Nəticələri ... 15**

**5. 2017-2020-ci illər üzrə Strateji Oriyentasiyalar və Prioritet Məsələlər ... 17**

*5.1. Ümumi məqsəd ... 17*

*5.2. "İnklüziv və davamlı iqtisadi inkişaf" sahəsi ... 18*

*5.3. "Effektiv demokratik müəssisələr, insanların təhlükəsizliyi və mühafizəsi" sahəsi ... 20*

*5.4. İncəsənət və Mədəniyyət ... 22*

**6. Proqramın İcrası və İdarəedilməsi ... 23**

**7. Rəhbərlik və Monitorinq ... 24**

Əlavələr ... 25

# Qısa icmal

Sovet İttifaqının tənəzzülündən iyirmi beş il sonra Ermənistan, Azərbaycan və Gürcüstan hələ də iqtisadi və sosial imkanlarını reallaşdırmağa mane olan ciddi problemlərlə üzləşirlər: Gürcüstanda Abxaziya və Tsxinvali Regionu/ Cənubi Osetiya, Ermənistan və Azərbaycan arasında isə Dağlıq Qarabağ ilə bağlı həll edilməmiş münaqişələrin mövcudluğu, o cümlədən iqtisadi imkanların kifayət qədər olmaması və idarəçiliklə əlaqəli çatışmazlıqlar regionun firavanlığı, stabilliyi və təhlükəsizliyini təhlükə altına salmağa davam edir.

İllər ərzində bu ölkələrdə təşviqedici islahatlar həyata keçirilmiş və hər üç ölkədə iqtisadi vəziyyət yaxşılaşmışdır. Lakin sosial, iqtisadi və regional fərqlər yüksək olaraq qalır və plüralist demokratik sistemlərə keçid qeyri-bərabər səviyyədə həyata keçir. Milli və yerli kontekstdə müxtəlif səviyyələrin olmasına baxmayaraq ümumilikdə region idarəçilik problemləri, o cümlədən kifayət qədər şəffaflığın olmaması və qanunun aliliyinin zəif olmasına görə təsirə məruz qalır. Gələcək ilə bağlı pessimizmin artması və siyasi rəhbərlik və təşkilatlara qarşı etimadsızlıq narahatlıq doğurur. Bu səbəbdən, İsveçrənin regionun insan kapitalı və sosial-iqtisadi potensialını artırmaq məqsədilə göstərdiyi davamlı dəstək mühüm əhəmiyyət kəsb edir.

İsveçrə Əməkdaşlıq Təşkilatının Cənubi Qafqaz üçün yeni Əməkdaşlıq Strategiyası 2017-2020-ci illər üzrə Beynəlxalq Əməkdaşlıq üzrə çıxış sənədində müəyyən olunan prinsiplərə əsaslanır və hər ölkənin müvafiq milli siyasətləri və inkişaf prioritetlərinə uyğun olaraq hazırlanmışdır. Sözügedən strategiya İsveçrənin regiondakı uzunmüddətli təcrübəsinə əsaslanaraq İsveçrənin Cənubi Qafqazda növbəti dörd il üçün nəzərdə tutduğu əməkdaşlıq üçün çərçivə müəyyən edir. İsveçrənin İnkişaf və Əməkdaşlıq Agentliyi (İİƏA), İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO), Xarici İşlər üzrə Federal Departamentin İnsan Təhlükəsizliyi Bölməsi tərəfindən birgə hazırlanan yeni strategiya müdaxilə tədbirlərinin optimallaşdırılmasına xüsusi diqqət yetirir və ümumilikdə Cənubi Qafqaz regionunun mənafeyi üçün regional yanaşmanı qətiyyətli şəkildə təşviq edir. Strategiya müdaxilə tədbirlərinin aşağıdakı iki sahəsini əhatə edir:

- *İnklüziv və davamlı iqtisadi inkişaf*

İsveçrə öz təcrübəsinə əsaslanaraq transsərhəd iqtisadi təşəbbüslərə yardım etmək məqsədilə kənd-təsərrüfatı üzrə dəyər zəncirinin təkmilləşdirilməsi, KOM-lara dəstək göstərilməsi, çərçivə şərtlərinin yaxşılaşdırılması və imkanların araşdırılması məsələlərinə xüsusi diqqət ayıraraq geniş iqtisadi inkişafa dəstək göstərməyə davam edəcək. Bundan əlavə, İsveçrə biznes mühitini yaxşılaşdırmağa imkan verən islahatların həyata keçirilməsinə dəstək göstərəcək, maliyyə mənbələrinə çıxış imkanını artıracaq və kənd yerlərinin iqtisadi inkişafına köməklik edəcək.

- *Effektiv demokratik müəssisələr, insanların təhlükəsizliyi və mühafizəsi*

İsveçrə hökumət orqanlarının səmərəliliyi və effektivliyinin artırılması, o cümlədən həm yerli hökumət orqanları, həm də dövlət maliyyəsinin idarə edilməsini gücləndirmək siyasətini yürüdəcək. İsveçrə həmçinin etibarlı və təhlükəsiz mühitə dəstək göstərmək məqsədilə kənd yerləri və dağlıq ərazilərdə dayanıqlı inkişafa xüsusi diqqət ayırmaqla ekoloji risklərin kompleks idarə edilməsi işində iştirakını davam etdirəcək. İsveçrə həmçinin münaqişə zonaları boyunca dialoq və qarşılıqlı əlaqənin yaradılmasını təşviq etməklə münaqişələrin transformasiya proseslərində fəal şəkildə iştirak edəcək. Bu fəaliyyətlər birlikdə hökumətin vətəndaşların ehtiyaclarına cavab tədbirlərini təkmilləşdirəcək və hökumətlərin cavabdehliyini gücləndirəcək. İsveçrə vətəndaşlar və müvafiq hökumətləri arasında daha böyük etimadın qazanılmasına çalışaraq yekun olaraq Cənubi Qafqazı daha az həssas və ümumilikdə daha təhlükəsiz regiona çevirməyə cəhd göstərir.

Ümumi problemlər ilə əlaqədar regional əməkdaşlığı təşviq etmək məqsədilə İsveçrə həm ümumilikdə regionun inkişafını təmin edən, həm də konkret sahələr üzrə üç ölkə arasında əlaqələrin yaradılması və ya gücləndirilməsinə imkan verən təşəbbüslər həyata keçirilməsinə səy göstərəcək. Bu yanaşmadan irəli gələrək Gürcüstan regional əməkdaşlığı gücləndirmək üçün əlaqə məntəqəsi kimi mühüm rol oynayacaq. Siyasi məhdudiyyətləri nəzərə alaraq, strategiya ilk öncə və ən önəmlisi yerli iqtisadi əməkdaşlıq və iqlim dəyişikliyinə adaptasiya kimi yalnız məqsədyönlü siyasi həssaslığa malik qarşılıqlı maraqlara səbəb olan sahələrə diqqət yönləndirəcək. Azərbaycanda başlıca olaraq SECO fəallıq göstərəcək. Mümkün olan zamanlarda İƏİA Azərbaycanı kənd yerlərində iqtisadi inkişaf, transsərhəd iqtisadi təşəbbüslər və təbii fəlakətlər ilə bağlı risklərin idarə edilməsinə dair regional layihələrə cəlb edəcək.

Gender bərabərliyi, yaxşı idarəçilik və münaqişələrə həssaslıq kimi prinsiplər kompleks mövzular kimi İsveçrə tərəfindən dəstəklənən bütün fəaliyyətlərə daxil edilmişdir.

2017–2020-ci illər üçün ayrılan ümumi maliyyə vəsaiti təxminən 67 milyon İsveçrə Frankı (CHF) təşkil edəcək.

# 1. Cari vəziyyət

Qara dəniz və Xəzər dənizləri, o cümlədən Rusiya Federasiyası, Türkiyə, İran və Avropa arasında yerləşən Cənubi Qafqaz hər zaman ciddi geosiyasi strateji maraqlara səbəb olan və iqtisadi dəyərə malik region olmuşdur. Ölkələr müxtəlif mədəniyyətlər və iqlimlərin təsirinə məruz qalır və müxtəlif xarici siyasi oriyentasiyalara xidmət etmişlər, bununla belə oxşar problemlər ilə qarşılaşırlar. Hər üç ölkə Sovet İttifaqının tənəzzülündən sonra oxşar mübarizə siyasətini bölüşür və bu siyasət bazar iqtisadiyyatı və demokratiyaya çətin keçid, iqtisadi və sosial inkişaf üzrə ciddi və xroniki çatışmazlıqlar, eləcə də ərazi mübahisələri və azlıq təşkil edən əhali qruplarının inklüziyası ilə əlaqəli məsələlər ilə xarakterizə olunur. Hər üç ölkə həmçinin müstəqillik əldə etdikdən 25 il sonra Rusiya Federasiyası ilə əlaqə və münasibətləri dəyişmək ehtiyacı ilə üzləşir.

1991-ci ildən etibarən hər üç ölkə müxtəlif xarici siyasət yürüdüblər ki, bu da onların daxili siyasətlərinə təsir edib. Gürcüstan 2003-cü ildən etibarən davamlı olaraq qərbyönümlü açıq siyasət yürütmüşdür və bu özünü 2014-cü ildə Aİ-nin Assosiasiya Sazişinin imzalanması, o cümlədən Avropa Azad Ticarət Assosiasiyası (AATA) və Çin ilə 2016-cı ildə azad ticarət haqqında sazişlərin imzalanması ilə göstərmişdir. Aİ ilə ilk *yaxınlaşmadan* sonra Ermənistan Rusiya ilə münasibətləri möhkəmləndirməyə üstünlük vermişdir və 2015-ci ilin əvvəllərində Avrasiya İqtisadi Birliyinə (AİB) üzv olmuşdur. Ölkə Aİ ilə əməkdaşlıq etmək imkanlarını axtarsa da, ölkənin Rusiyadan asılılığı son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Azərbaycan isə əksinə Avropanı neft və qaz ilə təmin edərək, Türkiyə ilə əlaqələri daha da gücləndirərək və Rusiya ilə sıx münasibətləri saxlayaraq bitərəf mövqeyini saxlamışdır.

Cənubi Qafqaz hər zaman hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin maraq obyektində olmuşdur və həmin qüvvələr regionun sədaqətinə təsir etməyə çalışmışdır. Hal-hazırda hər üç ölkə suverenliyini qorumaqla bağlı çətinliklərlə üzləşir, çünki əsas qüvvələr öz məhdud maraq siyasətini yürüdür və məqsədyönlü beynəlxalq əməkdaşlığa nail olmaq daha da çətinləşir. Növbəti dörd ildə Cənubi Qafqazın inkişafını formalaşdıracaq faktorlara daxildir: Ukraynada hökm sürən münaqişə; Rusiyanın Suriyaya müdaxiləsi və Türkiyə ilə proqnozlaşdırıla bilməyən münasibətləri; İranın regional hegemon kimi mövqeyinin yenidən təyin edilməsi; Regional aktor olaraq ABŞ-ın müvafiq yekun qənaəti; və Rusiya və Qərb arasında mövcud olan gərginlik.

Bu təsirlər başlıca olaraq Sovet İttifaqının tənəzzülü nəticəsində yaranan həll edilməmiş ərazi mübahisələri ilə əlaqəlidir. Məsələn, Rusiya müxtəlif münaqişələrin stabilləşdirilməsi və problemlərin həll edilməsi prosesləri üzrə əsas aktyor olaraq qalır. 2008-ci ildə baş verən Rusiya-Gürcüstan müharibəsindən bəri Rusiya Abxaziya və Tsxinvali Regionu/ Cənubi Osetiya üzərindəki təsirini davamlı şəkildə gücləndirmişdir. Lakin Gürcüstanın təcrid siyasəti və iştirakla bağlı maraq əlamətlərini azaltmaq məqsədilə Abxaziyada həyata keçirilən son təşəbbüslər iqtisadi və sosial sahələrdə bir qədər praqmatik *yaxınlaşmaların* baş verməsinə səbəb ola bilər. Digər tərəfdən, Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ ilə bağlı gərginlik isə əksinə son illərdə kəskinləşmiş və 2016-cı ilin aprel ayında dörd günlük müharibə ilə nəticələnmişdir. Müharibənin tam miqyaslı müharibəyə çevrilməsi gözlənilməsə də, vəziyyəti gözlənilməz olaraq qalır və status-kvo getdikcə davamsız hesab olunur. Rusiya müxtəlif tərəflər arasında vasitəçi qismində mühüm rol oynayır. Ermənistan və Türkiyə arasındakı münasibətlərdə heç bir irəliləyiş olmasa da, İranın münasibətləri açıq elan etməsi növbəti illərdə yeni iqtisadi və siyasi imkanlar yarada bilər.

Yoxsulluq hər üç ölkədə geniş yayılmışdır və yoxsulluq səviyyəsi hər üç ölkədə əhəmiyyətli dərəcədə yüksəkdir. Əhalinin təxminən yarısı kənd yerlərində yaşayır və onlar zəif dolanışıq imkanları, keyfiyyətli təhsilə məhdud çıxış imkanı və rəsmi iş yeri imkanlarına məhdud çıxışın olmasına görə əziyyət çəkir. Belə ki, onlar keçmiş Sovet İttifaqının tənəzzülündən sonra özlərinə gəlmək üçün mübarizə aparmağa davam edir. Hər üç ölkədə qadınlar dövlət strukturlarında təmsil olunmamaqda davam edir; maliyyə, təhsil və əmək bazarlarına çıxış imkanı azdır; və üzərlərində ödənişsiz qeyri-proporsional ev işi yükü vardır. Gender bərabərsizliyi də həmçinin güclü sosial və dini ənənələrdə dərinləşməkdə davam edir.

Xüsusilə, şəhər ərazilərində müsbət iqtisadi və sosial inkişafı sürətləndirən əsaslı iqtisadi inkişaf dövründən sonra bir sıra qlobal iqtisadi hadisələr və cərəyanlar regiona mənfi təsir etmişdir: Rusiyada durğunluq, neft və qazın qiymətinin kəskin düşməsi, pul köçürmələri və ixrac gəlirlərinin aşağı düşməsi, valyutanın dəyərdən düşməsi və inflyasiyanın yüksəlməsi. Tənzimləyici islahatların həyata keçirilməsi, biznes mühitinin yaxşılaşdırılması və mal ixracının etibarlı şəkildə aparılması bu hadisələrin təsirini azaltmağa köməklik göstərmişdir. Bununla belə, işsizliyin yüksək səviyyədə olması və dövlət və maliyyə infrastrukturunun müvafiq şəkildə olmaması dövlət xidmətlərinin effektiv şəkildə göstərilməsini təhlükə altına salır və iqtisadi fəaliyyətlərə, xüsusilə kiçik və orta müəssisələr

(KOM) kimi güclü sektorun yaradılmasına mane olur. Hər üç ölkədə təcili olaraq islahatlar həyata keçirilməsi və ələlxüsus kənd yerlərində iqtisadiyyatın şaxələndirilməsi üçün daha çox öhdəlik götürülməlidir. Kənd təsərrüfatı, turizm və informasiya texnologiyaları kimi sektorlar böyük inkişaf potensialına malikdir.

Region təbii fəlakətlər və texnogen qəzalara olduqca həssasdir və bu da xüsusilə dağlıq ərazilərdə iqtisadi inkişafa mane olur. Bu həssaslıq davamlı iqlim dəyişikliyi, torpaqların deqredasiyası və meşələrin qırılması ilə daha da pisləşir. İqlim dəyişikliyinin təsirləri xüsusilə ölkə sərhədlərdə koordinasiyalı cavab tədbirlərinin həyata keçirilməsini tələb edir, lakin regionda hökm sürən siyasi gərginliklər ucbatından bu tədbirləri maliyyələşdirmək hələ mümkün olmamamışdır.

Hakimiyyət uğrunda mübarizələrin təsirlərini və popülist qanunverici orqanların risklərini azaltmaq məqsədilə icraçı və məhkəmə orqanları üçün əlavə gücləndirmə işləri aparılmalıdır. Yaxşı idarəçiliyi, qanunun aliliyi, səlahiyyətlərin bölüşdürülməsi və şəffaflığı daha da təşviq etmək üçün həlledici tədbirlər görülməlidir. Siyasi rəhbərliklə bağlı ictimai narazılığın artması və iqtisadi imkanların məhdud olması çoxsaylı küçə etirazlarına səbəb olmuşdur. Bununla belə, vətəndaşların iştirak səviyyəsi aşağı olaraq qalır və siyasi elitaya məhdud dəyişikliklər edilmişdir. Gürcüstan və Ermənistanda fəal vətəndaş cəmiyyəti qrupları mövcud olsa da, onların hakimiyyət orqanları ilə qarşılıqlı əlaqəsi daha güclü ola bilərdi. Azərbaycanda vətəndaş cəmiyyəti hakimiyyət tərəfindən ciddi şəkildə nəzarət edilir. Bununla belə, Azərbaycanda hökm sürən bariz iqtisadi böhran institusional və iqtisadi islahatlar üçün unikal imkanlar yaradır. Lakin insan hüquqları sahəsində əməkdaşlığın problemli olaraq qalması gözlənilir.

2017-2020-ci illər ərzində İsveçrə Cənubi Qafqazda məqsədyönlü müsbət irəliləyişlərə nail olmağı gözləyir. Bununla belə, qlobal iqtisadi durğunluq çox güman ki, regiona mənfi təsir edəcək. Regionun geosiyasi mühiti əsasən gözlənilməz olaraq qalacaq, lakin hər üç ölkənin Qərb, Rusiya və digər ölkələrlə müvafiq siyasi oriyentasiyaları çətin ki, dəyişsin. "Həssas stabillik" ərazi mübahisələri üçün ən çox ehtimal olunan ssenaridir, lakin Dağlıq Qarabağ ilə bağlı hərbi münaqişələrin müvəqqəti alovlanması istisna edilə bilməz.



Cənubi Qafqaz çox müxtəlif landşaftların özəyidir və Gürcüstanın Acarıstan bölgəsində yerləşən bu kənd kimi dağlıq və təcrid edilmiş kənd ilə



Azərbaycanın paytaxtı Bakı şəhəri arasındakı fərqlər artır.

## 2. İsveçrə və Cənubi Qafqaz Regionu arasında Əməkdaşlıq üçün səbəblər

İsveçrənin 1988-ci ildən etibarən regionla əməkdaşlığa başlaması Cənubi Qafqazın bu üç ölkəsi ilə siyasi münasibətlərin gücləndirilməsinə töhfə vermişdir. Uzunmüddətli humanitar, inkişaf və maliyyə sahəsində göstərdiyi əməkdaşlıq və sülh quruculuğu təşəbbüslərinə görə İsveçrə hər üç ölkə tərəfindən qərəzsiz və etibarlı tərəfdaş hesab olunur. İƏİA kənd yerlərinin inkişafına investisiya yatıran inkişaf məsələləri üzrə ilk tərəfdaşlardan biri olmuşdur və yerli idarəçiliklə bağlı islahatlar, fəlakətlə əlaqəli risklərin azaldılması və münasib mənzillərin təmin edilməsi sahəsində malik olduğu təcrübəyə görə böyük rəğbət qazanmışdır. Azərbaycanda SECO maliyyə və qeyri-neft sektorunun inkişafı sahəsində təcrübəsi, o cümlədən makroiqtisadi dəstək, daha şəffaf və cavabdeh dövlət maliyyə idarəçiliyini təmin etdiyinə görə tanınır. İTB-in münaqişələrin transformasiyası və sülh quruculuğunda iştirakı İsveçrənin regionda sülhlə bağlı vasitəçilik işlərində neytral və vicdanlı vasitəçi kimi nüfuz qazanması ilə nəticələnmişdir.

Hər üç ölkə İsveçrə üçün yüksək siyasi və iqtisadi əhəmiyyət kəsb etmişdir. 2008-ci ildə Gürcüstan və Rusiya arasında diplomatik münasibətlərin kəsilməsindən sonra İsveçrə həm Rusiya, həm də Gürcüstanın müdafiəçi qüvvəsi kimi çıxış etməklə bağlı razılığa gəlmişdir: Rusiya Federasiyasının Tbilisidəki maraqlar payı və Gürcüstanın Moskvadakı maraqlar payı hal-hazırda İsveçrənin hər iki ölkədə yerləşən müvafiq səfirliklərinin işinin bir hissəsini təşkil edir. 2011-ci ildə İsveçrə Gürcüstan və Rusiya arasında Gömrük Monitorinqi haqqında Razılaşmanın imzalanmasına köməklik göstərmiş və Rusiyanın ÜTT-yə daxil edilməsinə yol açmışdır. Əlavə olaraq, İsveçrə diplomatına Aİ-nin 2008-ci il münaqişəsinə dair faktların araşdırılması üzrə müstəqil missiyasına rəhbərlik etmək həvalə edilmişdir. İsveçrənin həmçinin 2009-cu ildə Sürix Protokollarının imzalanması ilə Türkiyə-Ermənistan münasibətlərində irəliləyiş əldə edilməsində əməyi olmuşdur; bu protokolların icrasının dayandırılmasına baxmayaraq bu sənədlər iki ölkə arasında istənilən *yanaşma* üçün etalon rolunu oynayır. Ümumilikdə, İsveçrə həm birbaşa, həm də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) vasitəsilə regionda mövcud olan münaqişələr ilə əlaqədar çoxsaylı vasitəçilik fəaliyyətlərində iştirak etməyə davam edir. Cenevrə Beynəlxalq Müzakirələrinə dəstək göstərmək və münaqişə xətləri boyunca dialoq layihələrini həyata keçirməklə İsveçrə münaqişələrin həll edilməsi ilə bağlı səylərə davamlı olaraq dəstək göstərmişdir.

İsveçrənin Cənubi Qafqazın fəaliyyətlərinə cəlb olunması 2016-2019-cu illər üzrə Xarici Siyasət Strategiyaının prioritet məsələləri, xüsusilə də üçüncü (sülh və təhlükəsizlik) və dördüncü (davamlı inkişaf və firavanlıq) prioritet məsələləri ilə uyğunluq təşkil edir. İsveçrə fəaliyyətlərini Cənubi Qafqazda fəaliyyət göstərən digər donor təşkiilatlarla koordinasiya edir və həyata keçirdiyi müdaxilələr hər ölkənin müvafiq ehtiyaclarına uyğundur. Cənubi Qafqazın əsas fəal donor təşkilatlarına daxildir: Aİ, Amerika Birləşmiş Ştatları, Almaniya, İsveç, Böyük Britaniya, Yaponiya və Avstriya, eləcə də BMT-nin təşkilatları (BMTİP, UNWOMEN, FAO, KTİBF, BMT QAK), beynəlxalq maliyyə təşkilatları (Dünya Bankı Qrupu, BVF, AİB AİB, AYİB) və BQXK. Azərbaycan Dünya Bankının (DB) İsveçrə seçki dairəsi, Beynəlxalq Valyuta Fondu (BVF) və Qlobal Ekologiya Fondunun (QEF) üzvüdür; Azərbaycan həmçinin enerji təchizatı baxımından İsveçrə üçün mühüm tərəfdaşdır.



Fındıq emalçısı İsmayıl başlanğıcda çətinlik çəksə də, hal-hazırda Azərbaycanın Zaqatala şəhərinin ən uğurlu iş adamlarından biridir.

# 3. Keçmiş nailiyyətlər və təcrübələr

İsveçrənin 2013-2016-cı illər üzrə 111 milyon isveçrə frankı təşkil edən Əməkdaşlıq Strategiyası aşağıdakı üç müdaxilə sahəsi üçün hazırlanmışdır: (i) iqtisadi inkişaf və məşğulluq; (ii) idarəetmə və ictimai xidmətlər; və (iii) insanların təhlükəsizliyi və mühafizəsi.

## 3.1. İqtisadi inkişaf və məşğulluq

Özəl sektorda çalışan müxtəlif aktyorların dəstək göstərdiyi kənd təsərrüfatı üzrə dəyər zəncirlərinə əsasən kənd yerlərində iqtisadi inkişaf fəaliyyətlərində əhəmiyyətli dərəcədə iştirak (məs., süd, ət və meyvə kimi dəyər zəncirləri üzrə mal təchizatçıları, xidmət təminatçıları, istehsalçılar). Nəticədə, təsərrüfata dəstək xidmətlərinin keyfiyyəti və həmin xidmətlərə (o cümlədən, baytarlıq aptekləri, maliyyə və ixtisasartırma xidmətləri) çıxış imkanlarının təmin edilməsində xeyli irəliləyiş əldə olunmuşdur ki, bu da məsələn, Gürcüstanda ferma təsərrüfatı və mal-qaranın məhsuldarlığını artırmışdır, 53%-dən çox markalı pendir (hər il üzrə təxminən 1400 ton pendirə bərabər) layihə iştirakçılarından əldə edilmişdir. Ümumilikdə, 170,000-dən çox fermer və onların ailəsinin gəliri xeyli artmış, kənd təsərrüfatı ilə əlaqəli işgüzar dairələrdə bir neçə min iş yeri açılmışdır. Qadınların heyvandarlıq və ferma təsərrüfatının idarə edilməsində daha fəal rola malik olması sayəsində onların investisiyalar ilə bağlı qərarvermə prosesində iştirakı da həmçinin artmışdır. Bu nailiyyət miqrasiya təzyiqini azaltmağa köməklik etmişdir. Məsələn, Ermənistanda hədəf ərazilərdə digər regionlarla müqayisədə iki dəfə az daxili miqrasiya baş vermişdir. Nəticədə, Azərbaycanda süd və süd məhsulları istehsalçısı olan fermerlərin gəlirləri artmış, baytarların bacarıqları inkişaf etmiş, təlim və tədris məktəbləri gücləndirilmiş və süd məhsullarının dəyər zəncirində məşğulluq imkanları yaxşılaşdırılmışdır. Təəssüf ki, İƏİA 2015-ci ildə Azərbaycanda kənd təsərrüfatı ilə bağlı layihələrinə xitam verməli olmuşdur, çünki İsveçrənin icraçı tərəfdaşının qeydiyyat müddəti Azərbaycan Respublikasının hökumət orqanları tərəfindən uzadılmamışdır.

Azərbaycanda maliyyə sektoru İsveçrə hökumətinin səyləri nəticəsində müasirləşdirilmiş və diversifikasiya edilmişdir. Onlayn biznes qeydiyyatı kimi yeni elektron xidmətlərin təqdimatı xərclərin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur (illik 13 milyon ABŞ dolları). Milli poçt ofisi "Azərpoçt" yeni maliyyə xidmətləri, o cümlədən pul köçürmələri, valyuta mübadiləsi və debit kartların verilməsi kimi xidmətlər təmin etməklə kənd yerlərində yaşayan əhalinin maliyyə vəsaitləri və xidmətlərə çıxış imkanını əhəmiyyətli dərəcədə artırmışdır.

Gürcüstanda İsveçrə məcburi köçkünlər, həssas əhali qrupları və təbii fəlakət qurbanları ilə bağlı siyasətin hazırlanmasında fəal iştirak etmişdir. Nəticə etibarilə, məcburi köçkünlərin yaşayış şəraiti və mənzillə təmin olunması ilə bağlı narahatlıq doğuran məqamlar hökumətin Məcburi Köçkünlərin Yaşayış Şəraitinə dair Fəaliyyət Planı və Məcburi Köçkünlərin Fəaliyyət Planında öz əksini tapmışdır. 181 ailə üçün yeni yaradılan gəlir imkanları və 3700-dən çox ailəyə xidmət göstərən kiçik icma infrastrukturunun (təcili yardım maşınları və ya bağçalar) təmiri sosial-iqtisadi inkişafı artırmış və Gürcüstanda həssas əhali qruplarının rifahını yaxşılaşdırmışdır.



Baytarlıq aptekləri müxtəlif dəyər zəncirlərinin bütün hissələri boyunca yerli fermerlərə xidmət göstərmək məqsədilə yaxşı təchiz olunmuşdur.



Müəssisələr süd istehsalı texnologiyası, ərzaq təhlükəsizliyi, biznes və marketinq üzrə biliklərini artırdığına görə onların istehsal göstəriciləri iki dəfə artmışdır.




Kənd yerlərində yaşayan əhali indi "Azərpoçt" şirkəti tərəfindən təklif edilən yeni maliyyə xidmətləri və məhsullar sayəsində pul köçürə, mübadilə edə və ala bilər.

## 3.2. İdarəetmə və İctimai Xidmətlər

İdarəetmə və ictimai xidmətlər bölməsinə gəldikdə isə İsveçrə regional və yerli hakimiyyət orqanlarına daha böyük səlahiyyətlər vermək, vətəndaşların planlaşdırma və qərarvermə proseslərində daha çox iştirakını təmin etmək və dövlət resurslarının daha şəffaf və səmərəli şəkildə istifadə edilməsi üçün islahatlarla bağlı təşəbbüsləri dəstəkləmişdir. Ermənistan və Gürcüstanda İsveçrənin dəstəyi sayəsində milli, regional və yeri hakimiyyət orqanları hüquqi-normativ bazaları yaratmağı daha yaxşı bacarır, eləcə də sosial və iqtisadi inkişaf strategiyaları və büdcələri hazırlaya bilirlər. "Vahid pəncərə" prinsipi ilə işləyən ofislər və elektron hökumət təsis edilmiş və inzibati xidmətlərin təmin edilməsini təkmilləşdirmişdir. Ermənistanın İsveçrə tərəfindən dəstək göstərilən icma genişləndirmə prosesi indiyə kimi 165,000 sakin üçün daha az xərcli və daha yüksək ictimai xidmətlərə səbəb olmuşdur. Qadınların siyasi qərarların verilməsi proseslərində iştirakı güclənmişdir. Azərbaycanda ictimai infrastrukturla bağlı investisiyaların həmmaliyyələşdirilməsi və texniki yardım ictimai xidmətlərin təkmilləşdirilməsi, o cümlədən kommunal xidmətlərin daha da yaxşılaşdırılması və daşınmaz əmlakın qeydiyyatının asanlaşdırılması ilə nəticələnmişdir.

Ermənistan və Gürcüstanda İsveçrənin dəstəyi təbii fəlakətlərlə bağlı risklərin idarə edilməsi və davamlılığını artırmışdır. Ermənistanda 1.75 milyon sakin (ölkə əhalisinin 65%-i) təbii fəlakətlərə qarşı cavab tədbiri görmək üçün daha peşəkar imkanlardan faydalanırlar. İlk xilasedicilər üçün İsveçrə beynəlxalq standartlara uyğun olaraq regional xilasetmə komandaları yaratmış və onlara təlim keçilməsi, eləcə də onların davamlı peşəkar inkişafını təmin etmişdir. İsveçrə həmçinin Ermənistana təcili tibbi yardım qruplarının yaradılması, onlara təlim keçirilməsi, onların təchiz edlməsi, o cümlədən bacarıqların resertifikasiyası üçün sistem yaradılmasında köməklik göstərmişdir. İsveçrə Gürcüstanda təbii fəlakətlər ilə bağlı risklərin kompleks idarə edilməsi ilə əlaqədar milli və yerli hakimiyyət orqanlarının bacarıqlarını artırmışdır ki, bu da insanlar və onların vəsaitlərinin daha yaxşı mühafizə olunması ilə nəticələnmişdir. Bundan əlavə, İsveçrə dağlıq ərazilərdə ixtisaslaşmış xilasetmə qruplarına təlim keçirilməsi və onların təchiz edilməsinə dəstək göstərməklə ölkənin dağlıq ərazilərində xilasetmə sisteminin yaradılmasına başlamaqda milli və yerli hakimiyyət orqanlarına köməklik göstərmişdir.

Eyni zamanda, İsveçrə Gürcüstanda münasib (sosial) mənzillərin təmin olunması kimi uzunmüddətli fəaliyyətini davam etdirmişdir. Sosial məkan və şəhər inkişafı, sosial mənzil, sosial iş və evsizlik kimi mövzuların əks olunduğu tədris planı ilk dəfə hazırlanmış və Gürcüstanın üç aparıcı universitetlərinin akademik proqramlarına daxil edilmişdir. İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi münasib mənzillərin təmin olunması üçün şəhərsalma normaları və memarlıq standartları qəbul etmişdir.

Azərbaycanda vətəndaş cəmiyyəti ilə bağlı vəziyyətin pisləşməsi insan hüquqları və demokratiya sahəsində əhəmiyyətli irəliləyişin əldə olunmasına mane olmuşdur. Bununla belə, Azərbaycanda dövlət maliyyəsinin idarəedilməsi sahəsində irəliləyiş əldə olunmuşdur. İsveçrə istifadə olunan audit növlərini diversifikasiya edərək və auditlə bağlı idarəetmə imkanlarını təkmilləşdirərək xarici audit sisteminin gücləndirilməsində öz dəstəyini təmin etmişdir. Yaxşı qəbul edilmiş elektron qeydiyyat platformasına start verilmişdir ki, bu da kadastr və daşınmaz əmlakın qeydiyyatı prosesini yaxşılaşdırmışdır.



Ermənistanın Alaverdi şəhərində təxminən 20,000 sakin istifadəyə verilən "vahid pəncərə" prinsipi ilə təmin edilən xidmətlərdən faydalanır.



Su infrastrukturunun bərpası və tikintisi ilə Azərbaycanın kənd əhalisi hazırda müntəzəm qaydada içməli su əldə etmək imkanı var.



Gürcüstanda çox həssas əhali qrupları üçün daha yaxşı həyat şəraiti yaratmaq məqsədilə ictimai mənzillər tikilmişdir.

## 3.3. İnsanların təhlükəsizliyi və mühafizəsi

İsveçrənin yardımı hər üç ölkədə münaqişə nəticəsində təsirə məruz qalmış əhalinin həyat şəraiti və mühafizəsini yaxşılaşdırmışdır. İsveçrə Gürcüstan və separatçı Abxaziya bölgəsi arasındakı inzibati sərhəd xəttinin hər iki tərəfində işlər görməklə qərəzsizliyini gücləndirmişdir. İsveçrənin göstərdiyi dəstək Abxaziya və Tsxinvali regionu/Cənubi Osetiya ilə həmsərhəd olan Şida Kartli regionunda münaqişə nəticəsində təsirə məruz qalmış və qaçqın düşmüş 197 ailənin həyat şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. 158 ailəyə verilən ayrı-ayrı qrantlar onların sərbəstliyini artırmaqla və ya KOM-ların inkişafını təmin etməklə onlar üçün daha yaxşı həyat şərtləri yaratmışdır. Münaqişə nəticəsində hər iki ərazidə təsirə məruz qalmış təqribən 4,000 ailə bağçalar, məktəblər və ya suvarma sistemləri kimi icma infrastrukturunun təmirindən faydalanmışdır. BMT QAK və BQXK-in müvafiq illik müraciətlərinə cavab olaraq İƏİA Ermənistan, Azərbaycan və Gürcüstanda münaqişə nəticəsində təsirə məruz qalan əhalinin daha çox qorunmasına köməklik göstərmişdir.

İsveçrə regionda sülh quruculuğu fəaliyyətlərinin dəstəklənməsində mühüm rol oynamağa davam etmişdir. ATƏT-in həmsədri kimi 2014 və 2015-ci illərdə vəzifədə olan İsveçrə və Serbiya nümayəndələri müvafiq olaraq ATƏT-in Cənubi Qafqazda xüsusi nümayəndəsi olaraq Cenevrə Beynəlxalq Müzakirələrinə həmsədrlik etmiş və Gürcüstanda münaqişələr ilə əlaqəli problemlər üçün "neytral status" əldə olunmasında dəstəyini təmin etmişdir. İsveçrə həmçinin Dağlıq Qarabağ münaqişəsi üçün hərtərəfli sülh sazişinin əldə olunmasına yönəlmiş "strukturlaşdırılmış və intensivləşdirilmiş danışıqlar" planını təqdim etmişdir. 2016-cı ildə İsveçrənin Almaniyada sədrlik etdiyi müddətdə ATƏT-in sədrinin Cənubi Qafqazdakı xüsusi nümayəndəsini dəstəkləməyə davam etmişdir. Həmsədrlərin fəaliyyəti nəticəsində Cenevrə Müzakirələri konstruktiv atmosferdə davam etmişdir və tərəflərə Erqneti və Qalidə keçirilən aylıq görüşlər zamanı Hadisələrin Qarşısının alınması və Cavab Mexanizmi (HQCM) çərçivəsində praqmatik həll yollarının araşdırılmasında köməklik göstərilmişdir. Regional proqram çərçivəsində İTB vətəndaş cəmiyyəti ilə bağlı təşəbbüslərini dəstəkləmişdir ki, bu dəstək sayəsində Cenevrə Müzakirələrinə yerli və beynəlxalq tərəfdaşlar qoşulmuş və bu dəstək regionda "bağlantı" məsələsində irəliləyiş əldə olunmasına köməklik göstərmişdir.



İrakli Kobalia və dostları Gürcüstanın Çaişi regionunda istiliyin təmin olunması üçün təbii ehtiyatlardan istifadə etməklə istixananı bölüşürlər. O, İsveçrə tərəfindən təmin edilən kiçik qrantı istifadə etməklə öz biznesini genişləndirə bilmiş və məhsuldarlığı 35%-ə qədər qaldırmışdır.



2009-2014-cü illər ərzində İsveçrə Ermənistana altı regiondakı xilasetmə komandalarına əlavə köməklik etmək üçün 540 səhiyyə işçisi ilə birlikdə 27 tibb müəssisəsi təsis etmişdir. Tibbi yardım komandalarına hadisə yerində təcili tibbi yardım göstərmək üçün təlim keçirilir.



Peşə təhsili və kompüter kursları Azərbaycanda məcburi köçkün və qaçqın düşmüş qadınlar və qızların həyat şəraitini yaxşılaşdırması üçün faydalı fürsətdir.

## 4. Gələcək Proqramın Nəticələri

Həll edilməmiş münaqişələr və cəlb olunmuş tərəflər arasına etimadsızlığın olması regional əməkdaşlığın gücləndirilməsi üçün müəyyən məhdudiyyətlər yaratsa da, həm milli, həm də beynəlxalq aktyorlar razılığa gəlir ki, regional problemlərin əksəriyyəti yalnız əməkdaşlıq yolu ilə əldə oluna bilər. Belə regional yanaşma yalnız mövcud əməkdaşlıq mexanizmləri vasitəsilə əldə oluna bilər (xüsusilə, ticarət, nəqliyyat və ya enerji sahəsində) və müxtəlif sahələrdə akademik və peşəkar şəbəkələr yarada bilər (məs., dağlıq ərazilərin davamlı inkişafı və gender bərabərliyi). Nəticə etibarilə, İsveçrənin 2017-2020-ci illər üzrə Beynəlxalq Əməkdaşlığa dair Çıxış Sənədi Cənubi Qafqazda regional yanaşmanın gücləndirilməsini nəzərə tutur. Kənd yerlərinin iqtisadi inkişafı, fəlakətlə bağlı risklərin idarə olunması və iqlim dəyişikliyinə adaptasiya; idarəçiliklə bağlı islahatlar (məs., desentralizasiya prosesləri) və münaqişələrin transformasiyası kimi ilkin hədəf sahələr hələ də İsveçrənin 2017-2020-ci illər üzrə Əməkdaşlıq Strategiyasının əsasını təşkil edir, çünki bu sahələr regional kontekstdə və hər üç ölkənin siyasi prioritetləri baxımından olduqca aktual qalmışdır.

Ölkələr arasında körpü yaratması nəzərdə tutulan inteqrativ proseslər vasitəsilə aşağıdakı işlər görülməlidir: (i) Cənubi Qafqazın hər üç ölkəsinin xarici mənfi təsirlər və zərbələrin öhdəsindən gəlmək bacarığının gücləndirilməsi; (ii) müxtəlif siyasi oriyentasiyaya xidmət etməklərinə baxmayaraq hər üç ölkə arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi; və mümkün dərəcədə (iii) Gürcüstan və Abxaziya tərəfləri arasında etimadın qazanılmasına dəstək olmaq. Daha güclü regional əməkdaşlığın faydaları haqqında ictimai agahlığın artırılmasına dair tədbirlər nəticəsində ölkələr arasında siyasi gərginliyin azalması gözlənilir. İsveçrə kənd təsərrüfatı, iqtisadi inkişaf və fəlakətlə bağlı risklərin idarə edilməsi sahəsində uzunmüddətli fəaliyyəti, inkişaf məsələləri üzrə əməkdaşlıq sahəsində etibarlı tərəfdaş kimi təcrübəsi, hər üç ölkədə nümayəndəliyi vasitəsilə fiziki mövcudluğu və rəğbət qazanılan neytrallığı sayəsində regional inkişafı təşviq etmək üçün yaxşı imkanlara malikdir.

Azərbaycan və Ermənistan arasında birbaşa əməkdaşlığın olması ehtimal olunmadığına görə Gürcüstan bütün regionda qarşılıqlı əlaqələr və əməkdaşlığın təşviq edilməsində baza rolunu oynayacaq. Görülən işlər hər üç ölkənin qarşılıqlı maraq obyektində olan və məqsədyönlü siyasi həssaslığa malik sahələrə yönələcək. Bu sahələrə iqtisadi əməkdaşlıq (xüsusilə, transsərhəd ticarət və müvafiq əlverişli siyasət və hüquqi-normativ bazaların yaradılması), qadınlara səlahiyyət verilməsi, fəlakətlə bağlı risklərin idarəolunması və iqlim dəyişikliyinə adaptasiya sahələri aiddir.

Kənd təsərrüfatına əsaslanan iqtisadi inkişaf hər üç ölkənin xeyli kənd əhalisinin dolanışığı üçün əhəmiyyətli imkanlar təklif edir. İsveçrənin sistemli yanaşması seçilmiş dəyər zəncirlərinin gücləndirilməsinə nail olmuşdur. Eyni zamanda, iqtisadiyatın şaxələndirilməsi və monopoliyaların zəiflədilməsinə yönəlmiş islahatların həyata keçirilməsi təbliğ olunacaq. KOM-lar üçün maliyyə mənbələrinə çıxış imkanı yaratmaq və qadınlara xüsusi diqqət ayırmaqla sahibkarlığın gücləndirilməsi ilə çərçivə şərtlərinin həyata keçirilməsinə daha da dəstək göstərmək üçün unikal imkanlar mövcuddur.Qadınların səlahiyyətləndirilməsinə dair məqsədyönlü proqramlar ümumilikdə cəmiyyətlərin inkişaf etməsi nəticəsində gender bərabərliyinin artmasını təmin edir. Yerli hakimiyyət orqanlarının həm iqtisadi inkişaf, həm də sosial rifah sahəsindəki rolunu nəzərə alsaq, effektiv və səmərəli bələdiyyə xidmətlərinin gələcəkdə gücləndirilməsi əvvəlki kimi mühüm əhəmiyyət kəsb edir. Ümumilikdə, nəticələrin möhkəmləndirilməsi və dayanıqlılığının təmin olunması üçün həm yerli, həm də milli səviyyələrdə hakimiyyət orqanları ilə siyasi dialoq və sıx əməkdaşlıq məsələsinə daha çox diqqət yetirilməlidir.

İsveçrə iqtisadi inkişaf üçün yaxşı şaxələndirilmiş, yaxşı idarə edilən maliyyə infrastrukturunun böyük rol oynadığını nəzərə alaraq, Azərbaycanda maliyyə bazarlarına nəzarət və dövlət maliyyəsinin idarə edilməsi sahəsində öz dəstəyini təmin edəcək. İsveçrənin bu sahədə dəstəyi çox güman ki, artacaq və İsveçrə Azərbaycanın iqtisadi böhran nəticəsində ehtiyac duyulan cari islahatlar təşəbbüsünü kapitallaşdırmağa səy göstərəcək. Bundan başqa, iqtisadi inkişafı gücləndirmək üçün özəl və dövlət sektoru arasında dialoqların aparılması, o cümlədən transsərhəd mübadilələrin həyata keçirilməsini təşviq etmək üçün mexanizmlər yaradılmalıdır. İqtisadi və idarəçiliklə bağlı islahatların daha fəal şəkildə təbliğ edilməsi, o cümlədən qadınların qərarvermə prosesində iştirakını artırmaq üçün vətəndaş cəmiyyəti təşkilatları və özəl sektora da həmçinin dəstək göstərilməlidir.

Region çoxsaylı dağıdıcı təbii fəlakətlərə əvvəlki kimi meyllidir. Bu səbəbdən, xüsusilə, kənd yerləri və dağlıq ərazilərdə dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün risklərin şüurlu şəkildə planlaşdırılması və təhlükə zonalarının xəritəsinin hazırlanması zəruridir. Risklərin kompleks idarəedilməsi üçün milli və bələdiyyə kadrlarının potensialı daha da artırılmalıdır. Fəlakətlə bağlı risklərin idarəedilməsi sahəsində birgə səylərin görülməsi də həmçinin

regional inkişaf mexanizmlərini gücləndirə bilər. Planlaşdırmanın davam etdirilməsi daha əvvəl əldə olunan nəticələrə əsaslanacaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün görülən işləri əlaqələndirəcək, eyni zamanda təsis edilmiş regional akademik şəbəkələrlə əməkdaşlıq edəcək və hər üç ölkəni ən qabaqcıl təcrübələr bölüşməyə təşviq edəcək.

Gürcüstan hökuməti separatçı bölgə olan Abxaziya və Tsxinvali bölgəsi/Cənubi Osetiya ilə barışıq səylərini intensivləşdirməyə konkret istəyinin olduğunu nümayiş etdirmişdir. Gürcüstan hökuməti tərəfindən genişləndirilən belə təşəbbüslərə donor təşkilatlarla tərəfdaşlıq etmək və öz resurslarını etimad qazanma fəaliyyətlərinə sərf etmək, eləcə də inzibati sərhəd xəttinin hər iki tərəfində barışıq fəaliyyətlərinin aparılması daxildir. İnzibati sərhəd xətti boyunca kənd təsərrüfatı və ticarət fəaliyyətlərinin həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər siyahısına daxil edilə bilər. Əgər bu öhdəlik davam etsə, İƏİA üçün Abxaziya ilə regional iqtisadi əlaqələrini gücləndirmək məqsədilə fəaliyyətlərini genişləndirmək üçün unikal imkanlar yaranacaq və bu da İƏİA-nın münaqişələrin transformasiyasına dair göstərdiyi səylər üçün əlavə fəaliyyət rolunu oynayacaq.



Acarıstan bölgəsindəki bu kənd daşqın nəticəsində məhv edilmişdir. Daşqın kimi təbii fəlakətlər yerli infrastrukturu məhv edir, kəndlərin bazarlara gedən yollarını bağlayır və sahələri məhv edir. Mühafizə tədbirləri çayların sahilindəki təsərrüfata dəyən zərəri azaltmağa yönəlir.



Strategiya məsələn heyvanların müəyyən edilməsi və izlənilməsi üzrə regional yanaşma vasitəsilə üç ölkə arasında körpü rolunu oynamağı nəzərdə tutur.

# 5. 2017-2020-ci illər üzrə Strateji Oriyentasiyalar və Prioritet Məsələlər

## 5.1. Ümumi məqsəd

İsveçrənin Cənubi Qafqaz üçün 2017-2020-ci illər üzrə Əməkdaşlıq Strategiyası İƏİA, SECO və İTB-in birgə hazırladığı strategiyadır. Bu strategiyanın İsveçrənin fəaliyyəti ilə bağlı ümumi məqsədinə daxildir: regional dialoq və əməkdaşlığın gücləndirilməsi ilə Cənubi Qafqazın hər üç ölkəsinin xarici iqtisadi, siyasi və təbii fəlakət sarsıntılarının öhdəsindən gəlməsi; ölkələrin əhalisinin inklüziv iqtisadi inkişaf, o cümlədən daha demokratik və legitim müəssisələrin xidmətlərindən faydalanması; münaqişələrlə bağlı siyasi həll yollarının tapılması və insan təhlükəsizliyinin artırılması üçün sülh quruculuğu fəaliyyətlərinin aparılması. Gender bərabərliyi və yaxşı idarəçilik bir-biri ilə üst-üstə düşən mövzulardır. İsveçrənin Əməkdaşlıq Strategiyası bu mövzulara xüsusi diqqət yetirməklə sülh və inkişafın qovşağında yerləşən bir-biri ilə qarşılıqlı asılı olan problemləri həll etməyə çalışır. Məqsədyönlü və inklüziv daxili inkişaf etibarlı idarəetmə strukturlarına malik etibarlı və təhlükəsiz mühitin olmasını tələb edir; Eyni zamanda, gələcək münaqişələrin qarşısı alınmalı və ictimai xidmətlər daha yaxşı təmin edilməlidir. Beləliklə, İsveçrənin 2017-2020-ci illər üzrə Əməkdaşlıq Strategiyası iki əlavə sahə üzrə fəaliyyət göstərir: (i) inklüziv və davamlı iqtisadi inkişaf və (ii) effektiv demokratik müəssisələr, insanların təhlükəsizliyi və mühafizəsi



Azərbaycan, Naxçıvan yolunda becərilmiş təsərrüfat torpağı .

## 5.2. "İnklüziv və davamlı iqtisadi inkişaf" sahəsi

Bu sahənin məqsədi aşağıdakı kimidir: *Cənubi Qafqazın qadınları və kişiləri regionda daha inklüziv və davamlı iqtisadi inkişafdan faydalanırlar.* Kənd təsərrüfatına əsaslanan inkişaf kənd yerlərində yayılmış yoxsulluqla mübarizə aparılmasında əsas prioritet olaraq qalmaqda davam edir. Bu məqsədlə, İsveçrə əməkdaşlığın üç istiqaməti ilə məşğul olacaq.

Birincisi, kənd yerlərində sahibkarlığın inkişaf etdirilməsi və üç ölkədə əlaqələr və mübadilələrin artırılması ilə kənd təsərrüfatı üzrə dəyər zənciri inkişaf etdiriləcək. Məsələn, Gürcüstanda heyvanların müəyyən edilməsi və izlənilməsi sistemlərinin yaradılmasına dəstək göstəriləcək, eyni zamanda Ermənistan və Azərbaycanda uyğun sistemlərin yaradılması niyyətilə Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq gücləndiriləcək. Belə uyğunlaşdırılmış sistemlərin olması canlı heyvanlar və heyvan məhsullarının regional ticarəti üçün dəstəkləyici çərçivə şərtləri yaradacaq. Həm qadınlar, həm də əhalinin ən yoxsul təbəqəsi, o cümlədən münaqişə nəticəsində təsirə məruz qalmış əhali qruplarının iqtisadi inklüziyasına xüsusi diqqət yetiriləcək. Dəyər zəncirlərinin strateji seçimi, o cümlədən seçilmiş dəyər zəncirlərində qadınlar və kişilərin qarşılaşdığı çətinliklər və maneələrin analizindən istifadə etməklə bu inklüziyaya nail olunacaq.



Yerli fermerlər üçün yun ciddi ixrac imkanları təklif edir.

İkincisi, transsərhəd təşəbbüsləri (məs., ticarət) asanlaşdırmaq üçün inteqrativ proseslər ilə bağlı çərçivə şərtləri və imkanlar araşdırılacaq. Böyük regionda cənub-şimal və şərq-qərb arasındakı əməkdaşlıq üçün mühüm və strateji əlaqələndirici məntəqə kimi mümkün iqtisadi inteqrasiya modelləri nəzərə alınacaq.

Üçüncüsü, SECO İTB ilə birlikdə biznes mühitini yaxşılaşdırmağa və inkişaf potensialına malik, o cümlədən kənd yerlərində yerləşən KOM-ların maliyyə mənbələrinə çıxışını artırmaq üçün dəstək göstərməyə davam edəcək. Bununla əlaqədar, görülən işlər kənd təsərrüfatı və özəl sektorla bağlı siyasətlər, standartların müəyyən edilməsi və icrası, o cümlədən maliyyə mənbələrinə çıxış imkanlarının təmin edilməsi, (kənd yerlərində yerləşən) KOM-ların bacarıqları və maliyyə savadlılığının artırılmasına yönələcək. SECO maliyyə infrastrukturunun inkişafı və diversifikasiyası (məs., mobil ödəniş və bank xidmətlərinin inkişafına dəstəyin artırılması və qadınların maliyyə xidmətlərinə çıxış imkanının artırılması) ilə bağlı fəaliyyətlərdə iştirakını intensivləşdirəcək. Əlavə olaraq, iqtisadi fəaliyyətlər üzrə etibarlı və institusional çərçivəni fəal şəkildə təbliğ etmək üçün özəl sektora dəstək göstəriləcək.



Süd məhsulları istehsal edən kiçik zavodlar yerli bazara pendirin yeni bərk növünü təqdim etməklə istehsal məhsullarının həcmini və çeşidini artırmışdır.



Acarıstanın hündür dağlarının arıları mehmanxananın qonaqları üçün bal hazırlamaq məqsədilə Gürcüstanın Batumi şəhərindəki mehmanxanaların birinin terrasında yerləşdirilmişdir.

## 5.3. "Effektiv demokratik müəssisələr, insanların təhlükəsizliyi və mühafizəsi" sahəsi

Bu sahənin məqsədi aşağıdakı kimidir: *Cənubi Qafqazda yaşayan əhali daha güclü və daha demokratik müəssisələrin, o cümlədən insanların təhlükəsizliyi və mühafizəsi ilə bağlı xidmətlərdən faydalanır.* Funksional demokratik idarəçilik mexanizmləri və müəssisələri, insan hüquqlarına hörmət, eləcə də etibarlı və təhlükəsiz mühit davamlı və inklüziv inkişaf üçün *ilkin şərtdir*.

Bu sahə iqtisadi inkişaf üçün zəruri olan idarəçilik prinsiplərini dəstəkləməklə "inklüziv və davamlı iqtisadi inkişaf"ın digər sahəsini tamamlayır. Bu sahə çərçivəsində İsveçrə aşağıdakı əməkdaşlıq sahələrində selektiv şəkildə fəaliyyət göstərəcək.

Xüsusilə, Azərbaycanda dövlət xərcləri və müəssisələrin səmərəliliyi və şəffaflığını artırmaq üçün davamlı institusional potensialın gücləndirilməsi yolu ilə dövlət maliyyəsinin idarə edilməsi təkmilləşdiriləcək. Konkret sahələrə maliyyə bazarının tənzimlənməsi və nəzarəti, o cümlədən borcların idarə edilməsi aid olacaq.

Yerli iqtisadi inkişafı təşviq etmək, müvafiq ictimai xidmətlər göstərmək və vətəndaşların iştirakı (məs., dövlət və özəl sektor arasında dialoq) üçün mexanizmlər təmin etmək məqsədilə yerli hakimiyyət orqanlarının kadr potensialı gücləndiriləcək. İsveçrə qərarvermə prosesi barədə daha yaxşı məlumatlandırmanın aparılması üçün inkişafla bağlı kompleks yanaşmaların istifadə olunması və özəl sektorla daha sıx əməkdaşlığın əldə olunmasını dəstəkləyəcək. Regional iqtisadi əməkdaşlığı gücləndirmək, o cümlədən yerli idarəetmə və desentralizasiya ilə bağlı təcrübə və qabaqcıl təcrübə mübadiləsini aparmaq məqsədilə yerli hakimiyyət orqanları arasında regional səviyyədə transsərhəd əməkdaşlıq üçün imkanlar araşdırılacaq.

İsveçrənin fəlakətlərlə bağlı risklərin institusional idarə olunmasına verdiyi töhfələrlə əlaqədar əldə olunan müsbət nəticələrə əsaslanaraq iqlim dəyişikliyinə adaptasiya və risklərin kompleks idarə olunması üzrə strateji qarşılıqlı əlaqələr inkişaf etdiriləcək. Bu, kənd yerləri və dağlıq ərazilərə yönləndiriləcək və regional əməkdaşlıq və maarifləndirmə üzrə mövcud transsərhəd akademik və vətəndaş cəmiyyəti şəbəkələrinə dəstək göstəriləcək. Bu təşəbbüs insanlar və əhali qruplarının təhlükəsizliyi, o cümlədən investisiyalar və iqtisadi inkişafın davamlılığını artıracaq.

Başlıca olaraq, İTB proqramı və İƏİA-nın Abxaziyada mümkün əlavə dəstəyi ilə regionda dialoqlar, etimad qazanma və əlaqələrin gücləndirilməsi kimi fəaliyyətlər, o cümlədən münaqişələrlə bağlı siyasi həll yollarının tapılmasına köməklik göstərmək üçün təşəbbüslər həyata keçiriləcək.



Dövlət maliyyəsinin idarə edilməsi sahəsində təkmilləşdirilmə işlərinin aparılması Azərbaycanda daha səmərəli və cavabdeh dövlət müəssisələrinin təsis edilməsinə töhfə verəcək.



"Vahid pəncərə" prinsipi ilə işləyən ofis sözün həqiqi mənasında çoxsaylı xidmətlər təklif edən ofisdir. Nəticədə, Ermənistanın əksər hissələrində vətəndaşlar əmlak vergilərini ödəyə, arayış və ya icazə sənədləri əldə edə və yaxud bir məkanda bələdiyyə işçiləri ilə görüşə bilər.



Acarıstanın Coko bölgəsində sakinlərin təhlükəsiz keçidini təmin etmək üçün taxtadan hazırlanmış divar inşa edilmişdir. Daha əvvəl insanlar torpaq sürüşməsinə meylli asfalt döşənməmiş yamaclarla hərəkət edirdilər.

## 5.4. İncəsənət və Mədəniyyət

İƏİA-nın mədəniyyət və inkişafla bağlı siyasətinə uyğun olaraq Cənubi Qafqazın hər üç ölkəsində incəsənət və mədəniyyətin təbliğatı İsveçrənin regiondakı fəaliyyətinin mühüm elementi olacaq. İncəsənət və mədəniyyətin əlaqələndirici imkanları strategiyanın regional yanaşması sayəsində daha məqsədyönlü şəkildə istifadə edilməklə daha yaxşı tədqiq ediləcək. İsveçrə hər üç ölkənin Cənubi Qafqaz üçün gələcək perspektivləri formalaşdıra və nümayiş etdirə bilən, o cümlədən regionun gələcəyi ilə bağlı geniş müzakirələrə töhfə verə bilən incəsənət xadimləri üçün məkanlar və imkanlar yaratmağa səy göstərir. Eyni zamanda, hər üç ölkənin mədəniyyət hadisələrinə dəstək göstəriləcək.



Tbilisidə baş tutan müasir rəqs festivalı region və regionun hüdudları xaricindən incəsənət xadimlərini bir araya gətirmişdir və yaradıcı mübadilə və təlim üçün unikal imkanlar yaratmışdır.

# 6. Proqramın İcrası və İdarə edilməsi

İsveçrənin 2017-2020-ci illər üzrə Əməkdaşlıq Strategiyası İsveçrənin Cənubi Qafqaz regionunda fəaliyyət göstərən müxtəlif hökumət orqanlarının birgə fəaliyyəti üçün əsas rolunu oynayır. Xüsusi diqqət aşağıdakı fərziyyələrin yoxlanılmasına yönələcək: (i) inteqrativ proseslər vasitəsilə regionun xarici sarsıntılara müqavimətini arta bilər; və (ii) mövcud şəbəkələr daha çox regional dialoqun keçirilməsi və əməkdaşlığı gücləndirə bilər. Bu məqsədlə, *Deutsche Gesellschaft für Internationale Zusammenarbeit - Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti* (GIZ) təşkilatı və Avstriya İnkişaf Agentliyi (AİA) kimi inkişaf məsələləri üzrə həmfikir tərəfdaşlar, o cümlədən BMT, Bretton Vuds müəssisələri və Avropa İnvestisiya Bankı kimi çoxtərəfli təşkilatlar ilə regional inkişaf imkanlarına dair intensiv dialoqlara start verilmişdir.

Siyasi konteksti və hər üç ölkədə mövcud olan məhdudiyyətləri nəzərə alaraq, bu yanaşmanın əlaqə məntəqəsi Gürcüstan olacaq. İsveçrə riskləri minimuma endirmək, eləcə də effektivlik və səmərəliliyi artırmağa yardım etmək məqsədilə müxtəlif tərəfdaşlar, alətlər (məs., çoxtərəfli agentliklərə yardımlar, ikitərəfli müdaxilələr, vətəndaş cəmiyyətinə və özəl sektora dəstək) və yardım metodları (məs., ikitərəfli və regional layihələr, qlobal təşəbbüslər, çoxdonorlu və yerli etimad fondları) ilə işləyəcək. İsveçrə neytral mövqeyini qorumaqla siyasi dialoq və birgə təşəbbüslər ilə islahatların həyata keçirilməsini təşviq etmək üçün həmfikir donor təşkilatlarla əməkdaşlıq edəcək. Davamlılığa nail olmaq məqsədilə müdaxilələrin institusionalizasiyası və ölkə sistemlərinin istifadəsinə xüsusi diqqət yetiriləcək.

İsveçrənin iştirakını daha yığcam etmək və təsirlərini daha da artırmaq məqsədilə İsveçrənin 2017-2020-ci illər üzrə Əməkdaşlıq Strategiyası çərçivəsində müdaxilə sahələrinin sayı ikiyə endirilmişdir. İƏİA-nın humanitar yardımla bağlı fəaliyyətləri 2016-cı ildə başa çatsa da, fəlakətlə bağlı risklərin idarə edilməsi və iqlim dəyişikliyinə adaptasiya, o cümlədən Abxaziya bölgəsində münaqişə kimi ayrı-ayrı fəaliyyətlərin davamı əldə olunan müsbət nəticələrə əsaslanmağa və Cənubi Qafqazın xeyrinə olan keçmiş illərdə əldə olunan biliklərdən gələcəkdə istifadə etməyə köməklik göstərəcək.

2017-ci ildən etibarən İsveçrənin Ermənistan, Azərbaycan və Gürcüstanda vahid regional ofis kimi fəaliyyət göstərən əməkdaşlıq ofisləri hər üç ölkədə inzibati cəhətdən İsveçrənin səfirliklərinə daxil ediləcək. Bu konsolidasiya effektivlik və səmərəliliyi artıracaq və İsveçrənin müxtəlif müəssisələrinin müdaxilələri arasında güclü bağlılıq yaradacaq. Bakı və İrəvanda ümumi məkanlar artıq mövcud olsa da, Tbilisi üçün həll yolu növbəti illərdə reallaşdırılacaq.

Təhlükəsizlik mühüm komponent olaraq qalacaq. Xüsusilə, münaqişəyə həssaslığa əsaslanan idarəetmə prosesinin bir hissəsi kimi ölkə və regionda ümumi vəziyyət barədə anlayışın artırılması yolu ilə hər üç ölkənin səfirliyi və regional əməkdaşlıq ofisinin işçiləri arasında mədəniyyət və regional müxtəliflik genişləndiriləcək. Humanitar Yardıma tədricən keçid və portfelin müvafiq konsolidasiyası və selektiv genişləndirilməsi əsasında cari işçi heyətinin potensialı yeni proqram tələblərinə uyğunlaşdırılacaq. İsveçrənin hər üç ölkədəki nümayəndəliklərində xidmət göstərən tematik komandalar proqramın icrasına rəhbərlik edəcək və müqayisəli üstünlüklər və müvafiq təcrübələyə uyğun olaraq ofislərin işçiləri arasında təlimin keçirilməsinə köməklik göstərəcək. İTB İnsan Təhlükəsizliyi üzrə Məsləhətçinin təyin olunması ilə İsveçrənin regiondakı iştirakını artıracaq.

## 7. Rəhbərlik və Monitorinq

Əməkdaşlıq üzrə Regional Rəhbər tərəfindən rəhbərlik edilən idarəetmə komandası Tbilisidə yerləşəcək və İrəvan və Bakının Səfirliklərində xidmət göstərən əməkdaşlıq üzrə komanda ilə birlikdə proqramın icrasına nəzarət edəcək. Hər ölkənin inkişafı həm ümumi proqram, həm də konkret layihələr, eləcə də əlavədə təqdim edilmiş planlar (Əlavə 3) əsasında yaxından monitorinq ediləcək. Aşağıdakı sahələrə xüsusi diqqət yetiriləcək: (i) islahatların icrası və əlverişli mühitin yaradılması; (ii) mübahisəli ərazilərin və həmsərhəd bölgələrdə etnik azlıqların vəziyyəti; və (iii) regional dialoq və əməkdaşlıqla bağlı vəziyyət. Nəticələrin davamlı monitorinqi milli və regional səviyyələrdə həyata keçiriləcək. Proqramın monitorinqi və idarəedilməsi müddətində gender boşluqlarını başa düşmək və azaltmaq üçün təşəbbüslər həyata keçiriləcək. Hər üç ölkədə İƏİA, SECO və İTB-in işçi heyəti regional komanda olaraq işləməyə davam edəcək, birlikdə ildə iki dəfə planlaşdırma və yoxlama üzrə seminarlar keçirəcək, eləcə də regional təlim və idarəetmə ilə bağlı tapşırıqlar icra olunacaq.

İsveçrənin Cənubi Qafqaz üçün 2017-2020-ci illər üzrə Əməkdaşlıq Strategiyası çərçivəsində proqramın nəzərdə tutulan ödənişləri 67.2 milyon İsveçrə Frankı təşkil edəcək, 2013-2016-cı illər üzrə Strategiyanın ümumi məbləği isə 103 milyon İsveçrə Frankı (idarəetmə xərcləri istisna olmaqla) təşkil etmişdir (-35%, daha təfərrüatlı məlumat üçün Əlavə 4-ə baxın). Təklif olunan məbləğə idarəetmə xərcləri daxil deyil. Belə ki, idarəetmə xərcləri daha Şərqlə Əməkdaşlıq üzrə çərçivə kredit sazişinin bir hissəsi olmayacaq, lakin ölkənin təmsilçiliyi əsasında Xarici İşlər üzrə Federal Departamentin qlobal büdcəsinə daxil ediləcək. Ümumilikdə, İƏİA-nın yardımı 48.2 milyon İsveçrə Frankı, SECO-nun yardımı 15 milyon İsveçrə Frankı, İTB-in yardımı isə 4 milyon milyon İsveçrə Frankı təşkil edəcək.

Dörd illik müddət üçün planlaşdırılmış öhdəliklər və ödənişlər barədə məlumat indikativ xarakter daşıyacaq. Aktual ödənişlər tərəfdaş ölkənin çərçivə şərtləri, o cümlədən İsveçrə Parlamenti tərəfindən icazə verilən mövcud ödəniş kreditləri kimi müxtəlif faktorlardan asılı olacaq.

*(Maliyyə Planlaşdırması)*



Kredit imkanlarına çıxışın olması özəl sektorun inkişafı, o cümlədən kənd yerlərində yaşayan və sərbəst şəkildə çalışan ailələr üçün aparıcı qüvvədir.

## Əlavələr

1. Nəticələrin ümumi strukturu
2. Müdaxilə sahələri üzrə əldə olunan nəticələrin strukturu
3. Cənubi Qafqazla bağlı planlar və proqramın fəaliyyət planları ilə uyğunlaşdırılması
4. İndikativ maliyyə planlaşdırması